# Çağdaş ədəbiyyatımızda Nəriman Həsənzadə səmimiyyəti

**İstedadlı şairimiz Xəzangül xanımın məsləhəti ilə Gəncədən Bakıya yollananda onunla görüşəcəyimə inanmırdım. Vaxtı olacaqmı, mənimlə görüşəcəkmi kimi xəyallar içində boğulur, həyəcandan özümə yer tapa bilmirdim. "Pirsultan" dərgisinin naşiri Sarvan müəllimlə yola düşməzdən əvvəl onunla telefon əlaqəsi saxlayanda da bu görüşün baş tutacağına əmin deyildim.**

Bakıda işlərimi səhmana salandan sonra onun zəngini gözləməyə başladım. Vədələşdiyimiz vaxtdan iki saat keçmişdi. Sarvan müəllimlə hazırlaşıb Gəncəyə qayıtmaq istəyirdik. Birdən telefonumun zəngi məni xəyaldan ayırdı. Zəng edən o, idi - Azərbaycanın xalq şairi, Prezident təqaüdçüsü Nəriman Həsənzadə... Salam-kalamdan sonra Koroğlu heykəlinin yanına gəlməyimi məsləhət gördü.

Möhtərəm Prezidentimiz İlham Əliyevin hörmətli şairimizə hədiyyə etdiyi evdə üz-üzə əyləşmişik. Nəriman müəllim Gəncənin bu günü, ədəbi qüvvələri, təhsil aldığı Gəncə Dövlət Universiteti barədə suallar verir, ara-sıra cavablara müdaxilə edir, "Xəzangül xanım qənimət adamdır, çalışın onu qoruyun", "Sədnik müəllimin simasında Turan dünyası əvəzsiz bir alimini itirdi", "Altay Məmmədov hekayə janrında Mirzə Cəlilin layiqli varisi idi" kimi fikirlər söyləyir.

... Onun hər bir hərəkətini jurnalistliyimdən doğan sonsuz bir maraqla izləyirəm. Üzündən nur yağan bu şəxsin, daha doğrusu şəxsiyyətin adilikdən aliliyə, sadəlikdən dərinliyə, kamilliyə çatmış insanlığına, bu insanlığın fövqündə dayanan səmimiyyətinə heyran qalır, qəlbimdə yaxşı mənada qibtə hissi keçirirəm.

Bu alçatmaz səmimiyyətdə ataanaya məhəbbət, xeyirxahlarına sadiqlik, vətənə, millətə sədaqət, İlahi sevgi xüsusi yer tutur.

Söhbətarası hörmətli şairimizə bir neçə sual verməyə imkan tapıram.

- Nəriman müəllim, bir şeirinizdə yazırsınız:

**Mənim kitabımı ucuz eləyin,**
**tələbələr üçün, fəhlələr üçün,**
**hardasa, lap kasıb bir nəfər üçün,**
**maaşı aşağı olanlar üçün,**
**şəhərdə kirayə qalanlar üçün,**
**oxumaqdan ötrü alanlar üçün,**
**çörək qiymətinə, duz qiymətinə,**
**qoy sonra qalxsın öz qiymətinə.**

Bu sizin xarakterinizdə, davranışızda olan nəzakətdən, diqqətdən, kövrəklikdən, səmimiyyətdən irəli gəlir, yoxsa varlığınızda yaşatdığınız kənd uşağının saflığından?

- Elə hər ikisindən. Bildiyiniz kimi, Qazağın Poylu qəsəbəsində anadan olmuşam. Bir yaşımda atamı itirmişəm. Anam bir saçını ağ, bir saçını qara hörüb, çörək bişirib satmaqla məni böyüdüb. Mənim mükəmməl təhsil almağım üçün min bir əziyyətə qatlaşıb, rahatlığın, istirahətin nə olduğunu bilməyib. Gecələr xəmir qatmaq, təndirə çörək yapmaq, səhərlər o çörəyi satmaq, əlavə yemək hazırlamaq, palaz-paltar yumaq, evi təmizləmək   Lakin, yeganə övladı olan mənə bir dəfə də olsun yorulduğunu bildirməzdi. Əlbəttə, bu barədə "Nabat xalanın çörəyi" povestimdə ətraflı bəhs edilib. Onu demək istəyirəm ki, dünyanın hər üzünü görmüşəm, kasıblığı da, pulsuzluğu da, ehtiyacı da   Hələ intstitutda oxuyarkən mərkəzi qəzetlərin birində şeirim çap olunub, pulum olmayıb ki, həmin qəzeti alım. İrsi genimdən gələn məğrurluq, anamın verdiyi düzgün tərbiyə imkan verməyib ki, kimdənsə pul istəyim. Yuxarıda dediyiniz şeir də şair qəlbinin təmizliyindən, saflığından qopan bir etirafdır.

**Arxada uçurum, qabaqda zaman,**
**İnsandan insanlıq istəyir insan.**

Nəriman müəllim, sizi oxuculara sevdirən cəhətlərdən biri də sizə edilən yaxşılıqları unutmamağınız, xeyirxahlarınızı həmişə hörmətlə xatırlamağınız, insana ləyaqətlə yanaşmağınız, həyatda və poeziyada könülləri fəth edən səmimiyyətinizdir. Məncə bütün bu məziyyətlər şəxsiyyətin bütövlüyünü təsdiq edən ən ali amillərdir.

- Tale elə gətirib ki, gəncliyimdən bu günə kimi yaxşı adamların əhatəsində olmuşam, onlar mənim həyat və yaradıcılıq yollarımda yaşıl işıq yandırıblar. Çətin anlarda qolumdan tutub yıxılmağa qoymayıblar. İnstitutu bitirdikdən sonra hərbi xidmətə çağırıldım. "Salyanski kazarma" deyilən yerdə qulluq edirdim. Günlərin birində anamın vəfat etdiyi barədə teleqramm gəldi. Kimə icazə üçün ağız açdımsa yox cavabı aldım. Dünya-aləm gözümdə qaraldı. Avtomat götürüb kazarmadan çıxdım. Əli silahlı əsgər və zabitlər məni dövrəyə aldılar. Əsəblərim tarıma çəkilmişdi. Qəzəblə məni dövrəyə alanlara qışqırdım: - Məni saxlamağa çalışanı, mənə yaxın gələni vuracam. Əlacı kəsilən zabitlərdən biri: - Qoyun getsin, gələndə cəzasını alar - dedi.

Maşına oturub birbaşa Poyluya getdim. Anamın yeddisini verib kazarmaya qayıtdım. Məni həbs edib, haqqımda cinayət işi qaldırıldı. Bundan sonra məni nə gözləyirdi, bunu bircə Allah bilirdi...

Xoşbəxtlikdən həbs olunduğum günün səhərisi görkəmli şairimiz Rəsul Rzanın əsgərlərlə görüşü keçirilirdi. Şairlə birlikdə Nigar xanım Rəfibəyli və Ənvər Məmmədxanlı da iştirak edirdilər. Nigar xanım birdən Ənvər müəllimdən soruşur: - Ənvər, mən biləni Nəriman burda qulluq edir. Nədənsə gözümə dəymir?

Ənvər Məmmədxanlı vəziyyəti öyrənib başıma gələnləri öyrənir və Rəsul müəllimə xəbər verir. Rəsul Rza həmin dəqiqə görüşü saxlayıb, dairə komandanının, generalın qəbuluna girir, mənim istedadlı şair olduğumu bildirib təcili azad olunmağımı tələb edir.

General Rəsul müəllimin zəhmli, zabitəli baxışları, böyük nüfuzu qarşısında geri çəkilir və azad olunmağıma razılıq verir. Bundan sonra görüş davam etdirildi və hətta, həmin görüşdə bir şeir də oxudum. Həmin gündən sonra mənə dəyib toxunan olmadı.

1954-cü il. Gəncə Dövlət Universiteti (keçmiş H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunu) bitirib Bakıya gəlmişdim. Balaxanıda müəllim işləyirdim. Rəhbərlikdən icazə alıb, Yazıçılar İttifaqına "Gənclər günü"nə getmişdim. Tədbirdə bir neçə şeir də mən oxudum. Ön cərgədə oturan Mir Cəlal müəllim məni təbrik etdi. Üzünü Əyyub Abbasova tutub: - Nəriman yaxşı şairdir. Kitabını buraxmaq yerinə düşər.

Hərbi xidmətdən sonra Məmməd Araz və Xəlil Rza Ulutürk M.Qorki adına Dünya ədəbiyyatı İnstitutuna qəbul olunduq. Yay tətili zamanı qatarla Bakıya qayıdırdıq. Xoşbəxtlikdən türk dünyasının böyük şairi Nazim Hikmətlə eyni vaqonda gəlirdik. Yol boyu onunla ədəbiyyatdan, onun nəzəri məsələlərindən, problemlərindən danışdıq. Bakıda çatmağa az qalmış Xəlil Nazim Hikməti evinə qonaq dəvət etdi. Cavabında Nazim Hikmət: - Mən Nərimanının evinə qonaq gedəcəm - dedi. Quruyub yerimdə qaldım. Bakıda evim-eşiyim nə gəzirdi. Təzəcə evlənmişdim. Yarım zirzəmi kiçik bir otaqda qalırdım. Vəziyyətimin çətinliyini hiss edən Məmməd Araz: - Nazim bəy, Nərimanın Bakıda evi yoxdur, bir də ki, bizim evimiz Nərimanın evi deyilmi?

Nazim Hikmət yerindən durub: - Mənimlə gəl, sabahdan sənin də evin olacaq - dedi.

Sən demə, Nazim Hikmət Gəncədə qonaq olarkən şəhər partiya komitəsinin birinci katibi işləmiş Ağamirzə Əhmədovla möhkəm dostluq əlaqələri yaranıbmış. Ağamirzə müəllim Bakı şəhər İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışırdı. Moskvadan Bakıya da Nazim Hikmətlə bir kupedə qayıdırmış. Nazim Hikmət kupenin qapısını açıb ərklə içəri girdi. Məni Ağamirzə Əhmədova təqdim edib, münasib bir evlə təmin etməyini xahiş etdi. Ağamirzə Əhmədov üzünü mənə tutub: - Sabah yanıma gələrsiniz - dedi.

Səhər saat 9-00-da Ağamirzə Əhmədovun qəbuluna getdim. Qapıda dayanan milis nəfəri adətinə uyğun şəkildə məni başdan ələmək məqsədilə: - Ağamirzə müəllim işdə yoxdur, Moskvadadır, gedin iki gündən sonra gələrsiniz - dedi.

- Ağamirzə müəllim dünən mənimlə yol-yoldaşı olub, ona deyin ki, Nazim Hikmət tapşırdığı adam sizi görmək istəyir.



Nazim Hikmət adını eşidən polis işçisi tələsik Ağamirzə Əhmədovun kabinetinə girdi. Aradan iki dəqiqə keçməmiş Ağamirzə müəllimlə qayıtdı. A.Əhmədov o tərəf, bu tərəfə baxıb: - Hanı Nazim bəy? - deyə milis nəfərinin üzünə baxdı.

Mən qabağa gəlib: - Ağamirzə müəllim, Nazim bəy yox, onun xahiş etdiyi adam gəlib - dedim.

A.Əhmədov hirsini boğub: - Ay saqqalı ağarmış, gəlmisən yanıma gəl, daha məni aşağı düşürmək nəyə lazım - deyə gülümsədi.

İşçilərdən birini mənə qoşub veriləcək evə baxmağa göndərdi. Ev iki otaqdan ibarət idi. Tanınmış muğam ustası Yavər Kələntərliyə başqa yerdən ev verildiyinə görə boş idi. Xülasə, elə həmin gündən evin orderini alıb oraya köçdüm. Nazim Hikmətin xeyirxahlığı sayəsində Bakıda ev-eşikli oldum.

1961-ci ildə İnstitutu bitirib böyük arzularla, böyük ümidlərlə Bakıya qayıtdım. Uzun müddət işsiz qaldım. Hər yerdən ümidim kəsilmişdi. Günlərin birində böyük zərurətdən doğan təsadüf məni Mir Cəlal müəllimlə qarşılaşdırdı. Müdrik bir ağsaqqal, bir ata qayğısıyla: - Nə axtarırsan? - deyə soruşdu.

- İş axtarıram, Mir Cəlal müəllim - deyə cavab verdim.

Ay canı sağ olmuş, iş axtarmazlar, adam axtararlar, adam da mən, sabah gəl universitetə, orada bir şey fikirləşərik - dedi.

Həmin gündən Mir Cəlal müəllim mənim taleyimdə yaşıl işıq yandırdı. Çətin anlarda qolumdan tutdu, yıxılmağa, büdrəməyə qoymadı. Mən də bu yolda ustadımın, müəllimimin, mənəvi atamın adına layiq hərəkət etdim. Başqa sözlə, Mir Cəlal müəllim atam oldu, Püstə xanım anam.

Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin Azəbaycan ədəbiyyatı tarixi kafedrasının aspiranntı kimi Mir Cəlal müəllimin rəhbərliyi altında "Azərbaycan-Ukrayna əlaqələri" mövzusunda dissertasiya işimi tamamlayıb filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görüldüm. Mir Cəlal müəllimin köməkliyi sayəsində universitetdə saathesabı müəllim işləməyə başladım. Az keçmədi ki, kafedraya bir müəllim ştatı verildi. Bəli, Mir Cəlal müəllim akademik Faiq Bağırzadəylə danışıb o yeri mənim üçün ayırtdırmışdı. Bilmirəm, nədənsə müdafiədə iştirakdan imtina etdim. Mir Cəlal müəllim mənim bu hərəkətimdən incisə də, bunu heç zaman üzümə çəkmədi. Yenə də məndən qayğısını əsirgəmədi. Mənim boş vaxtlarım onlarda keçirdi. Mir Cəlal müəllimin ilk və sözü bu olardı: - Sən şairsən, şairliyini heç vaxt unutma. Hələ aspirant dövründə xeyirxahlıq işığını əsirgəməmiş həyat və yaradıcılığım haqqında sanballı məqalələr yazıb dövri mətbuatda çap etdirmişdi. İndi düşünürəm ki, Mir Cəlal müəllimlə tanış olmasaydım, nə xalq şairi ola bilərdim, nə də Prezident təqaüdçüsü.

Yuxarıda qeyd etdiyim kimi bir yaşımda atamı itirmişəm, 23 yaşımda anamı. Sözün həqiqi mənasında Mir Cəlal müəllim mənə atalıq edib, Püstə xanım analıq.

Yazıçılar İttifaqında gənc yazarlar üçün yaşayış binası tikilmişdi. Mənzil şəraitim dözülməz olsa da buradan mənə mənzil ayrılmadı. Bir gün adət etdiyim kimi Mir Cəlal müəllimgilə getmişdim. O, üzümə baxıb: - Hazırlaş, sən, mən və Püstə xanım yaxın bir dostun evinə qonaq gedirik. Qonaq yerinə çatanda bildim ki, bu ev Mehdi Hüseynin evidir. Nəyə gəldiyimizdən xəbərim yox idi. Mehdi Hüseyn Yazıçılar İttifaqının birinci katibi işləyirdi. Söhbətarası Mir Cəlal müəllim üzünü Mehdi Hüseynə tutub: - Mehdi, Nərimanı yəqin ki, yaxşı tanıyırsan. Çox istedadlı, ümidverici gənclərdən biridir - dedi. Mehdi Hüseyn: - Tanıyıram, yaradıcılığına da bələdəm. Yaradıcılığı barədə yazmaq istəyirəm - cavabını verdi.

- Nərimanın ev şəraiti dözülməzdir, bu barədə nə fikirləşirsən?

- Nərimana ev veriləcək, ancaq gələn dəfə.

- Arifin (Mir Cəlalın oğlu) adını siyahıdan çıxart, Nərimanın adını yaz.

Mehdi Hüseyn sorğulu gözlərini Mir Cəlalın üzünə dikdi.

- Niyə susursan, Mehdi? Mən elə bu xahişlə yanına gəlmişəm.

Mehdi Hüseyn yaxşı bilirdi ki, Mir Cəlal müəllimin ailəsinə ev hava, su kimi lazımdır. Oğlu Arif nişanlıdır, evlənmə ərəfəsindədir. Mir Cəlal müəllimin və Püstə xanımın xeyirxahlığı, qayğıkeşliyi, alicənablığı və ürəkgenişliyi sayəsində Arifin evi mənə verildi. Sonradan öyrəndim ki, Mir Cəlal müəllim kooperativə pul keçirməklə Arifə ev alıb. Hətta, həmin evin pulunun bir hissəsini yaxın dostlarından birindən borc götürmüşdü.

Biz evə köçəndə Mir Cəlal müəllim Püstə xanımla evgördüsünə gəldilər, özü də əlidolu, hədiyyəli.

Evimin ən gözəgəlimli yerində, daha doğrusu başımın üstündə Mir Cəlal müəllimin şəkli asılıb. Mənə elə gəlir ki, işə yola düşəndə xeyirdua verir, işdən qayıdanda salamlaşır, çətinə düşəndə məsləhət verir.

Şükürlər olsun ki, Mir Cəlal müəllimdə olan xeyirxahlıq, qonaqpərvərlik, alicənablıq onun böyük oğlu Arif müəllimdə cəmləşib.

Köməksizə əl tutmaq, insanlara xoş münasibət, yolunu azanı düz yola qaytarmaq bu ailənin qanındadır, canındadır.

Mətbuat və İnformasiya Nazirliyi ləğv olunandan sonra bir müddət işsiz qaldım. O zaman, yəni 1997-ci ilin yay günlərinin birində Amerika Birləşmiş Ştatlarının fövqəladə və səlahiyyətli səfiri, Arif müəllimin kiçik qardaşı Hafiz müəllim zəng çaldı. İşlə əlaqədar müvəqqəti Bakıya qayıtmışdı. Mir Cəlal müəllimin sağlığında mənə etdiyi zarafatı Hafiz müəllim də təkrarladı: - Mənə elə gəlir ki, sən Bakıda yaşayırsan, niyə görünmürsən? Düzü bərk kövrəldim. Mir Cəlal müəllimli günlərimi xatırladım. Hafiz müəllim sözünə ara verməden: - Sabah Arifin yanına get, səni axtarır, bəlkə bir sözü var? - deyib dəstəyi asdı.

Səhərisi gün Milli Aviasiya Akademiyasına getdim. Elə həmin gündən də akademik Arif Paşayevin məsləhəti ilə bu ali təhsil ocağında işləyirəm. Professoram, dil və ədəbiyyat kafedrasının müdiriyəm. Arif Paşayev böyüklüyü və qayğıkeşliyi bu gün mənə mənəvi dayaqdır. Bu gün yaşayıram və yazıb-yaradıramsa, birinci növbədə Arif Paşayevə minnətdaram. Arif müəllimin köməyi və dəstəyi Almaniyada ürək əməliyyatı olunmuşam. Avtoqəza nəticəsində bərk xəsarət aldım. Yenə quyuya düşən Məlikməmmədin köməyinə Zümrüd quşu çatdığı kimi, köməyimə çatan akademik Arif Paşayev oldu. 2 dəfə Türkiyəyə müalicəyə göndərdi. Bir sözlə, mən özümü bu ailənin bir üzvü hesab edirəm. Mir Cəlal müəllimə güvəndiyim kimi onun övladı, Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevə də güvənirəm.

Nəriman müəllimin şəxsi həkiminin gəlişi ilə söhbətə ara verilir. Nəriman Həsənzadə müayinə üçün həkimlə bərabər o biri otağa keçir. Mən isə qabağıma qoyulmuş çaydan bir qurtum içib xeyirxah adamlar haqqında yazdığım şeirin bir bəndini xatırlayıram.

**El sevsən eldə sevər, elin gözü tərəzidir,**
**Bir kəlməsi, bircə sözü bir ordunun əvəzidir.**
**Dar məqamda ana yurdun Qoşqarıdır, Kəpəzidir,**
**Alim kimi, insan kimi kişi ömrü yaşayanlar.**

...Yenidən yemək masasının arxasında söhbətimizi davam etdiririk. Nəriman müəllim yazıçı və şairlərə göstərilən dövlət qayğısından ürəkdolusu danışır.

Ulu öndərimiz, xalqımızın xilaskarı Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin qələm adamlarına diqqətlə yanaşması ön plana çəkilir. Nəriman Həsənzadənin Əməkdar İncəsənət Xadimi, Xalq Şairi fəxri adlarına, Prezident təqaüdünə layiq görülməsi, orden və medallarla təltif olunması qələm adamlarına göstərilən diqqət və qayğının ən parlaq təzahürüdür.

Yeməkdən sonra mənim təkidimə baxmayaraq Nəriman müəllim məni maşınla Sabir bağına, Sərvan müəllimlə vədələşdiyimiz yerə gətirir.

...Bir neçə dəqiqədən sonra Sərvan müəllim gəlib çıxır.

Gəncəyə yola düşürük. Yolboyu böyük şairimizin nurlu siması xəyalımda canlanır, səmimi etirafları qulağımda səslənir. Kabardin-Balkar xalq şairi Kaysın Kuliyevin onun poeziyası haqqında yazdığı məqaləni xatırlayıram: "Mən Nəriman Həsənzadənin şeirlərini görəndə məhz ona görə sevindim ki, onlarda (şeirlərdə) ritorikadan, təmtəraqlı, bəzəkli ibarələrdən uzaq, təmiz, pak insan səsi eşitdim".

**Davamı gələn sayımızda**

**Ramiz TƏMKİN**